| | | | |
|---|---|---|---|
| | **Fənnin adı, kodu və kreditlərin sayı** | GEOG 416, İqtisadi və sosial coğrafiyanın əsasları, 6 AKTS | |
| | **Departament** | Coğrafiya və ətraf mühit | |
| | **Proqram** | Bakalavr | |
| | **Tədris semestri** | 2023/24-cü tədris ilinin payız semestri | |
| | **Fənni tədris edən müəllim** | Rövşən Nəriman oğlu Kərimov, c.ü.f.d. | |
| | **E-mail:** | rovshan.kerimov@khazar.org | |
| | **Telefon:** | +994504886420 | |
| | **Mühazirə otağı / Cədvəl** | Həftənin 1-ci günü saat 17:30,<br>4-cü günü 14:10 | |
| | **Məsləhət saatları** | Həftənin 1-ci günü 14:00-15:00 | |
| **Prerekvizitlər** | | | |
| **Tədris dili** | Azərbaycan | | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | *Əsas:*<br>1. Dünyanın iqtisadi və sosial coğrafiyası. (H.B.Soltanovanın redaktəsi ilə). Bakı: Sabah. 2017. 584 səh.<br>2. Lomakin V.K. Dünya iqtisadiyyatı. Bakı. 2013, 625 s.<br>*Əlavə:*<br>3. James M. Rubenstein. Contemporary Human Geography. 4th Edition. Pearson Education. 2019.<br>4. D.Mackinnon, A.Cumbers. Introduction to Economic Geography: globalization, uneven development and place. 2nd ed. Pearson Educ. 2011.<br>5. Ələkbərov Ə.H., Vəliyev M.Ə., Məmmədov S.M.. Beynəlxalq iqtisadi münasibətlər. Bakı: Çaşıoğlu, 2010, 652 s.<br>6. Kərimov C., Orucov A., İsrafilov H. Beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsi. Beynəlxalq iqtisadi təşkilatlar. Bakı, 2012, 388 s.<br>7. Bədəlov Ə., Ağayev A., Tağızadə S. Dünya iqtisadiyyatı. Bakı, 2006, 246s.<br>8. R.H.Məmmədov, Tofiq Bəhərçi, V.Z.Mehdiyeva, T.S.Quliyev. Dünyanin iqtisadi və sosial coğrafiyası. "İqtis. Un." nəşriyyatı. 2006. | | |
| **Tədris metodları** | Mühazirə | + | |
| | Slayd (xəritə, diaqram və s.) ilə izah | + | |
| | Qrup müzakirəsi | + | |
| | Fərdi tapşırıqlar | + | |
| **Qiymətləndirmə** | Komponentləri | Tarix | Faiz (%) |
| | Davamiyyət | | 5 |
| | Aktivlik | | 5 |
| | Kuiz | Oktyabr və dekabr | 10 |
| | Tapşırıqlar | Yazılı esse və/yaxud təqdimat – dekabr | 10 |
| | Aralıq imtahanı | Noyabr | 30 |
| | Final imtahanı | Yanvar | 40 |
| | Yekun | | 100 |
| **Kursun təsviri** | "İqtisadi və sosial coğrafiyanın əsasları"nın tədrisi iqtisadi qloballaşmanın, inteqrasiya proseslərinin gücləndiyi müasir dövrdə çox aktual əhəmiyyət kəsb edir. Müasir dövrün başlıca qanunauyğunluqlarından biri dünya ölkələrinin inkişafının, getdikcə tamlaşan və özü-özünə inkişaf edən sistem kimi formalaşan dünya iqtisadiyyatından asılılığının artmasıdır. Bu proses ictimai istehsalın inkişafının daha yüksək səviyyəsi olan çox tərəfli və mürəkkəb iqtisadi münasibətlərdən ibarət olan dünya təsərrüfatının yaranmasına gətirib çıxarmışdır.<br>"İqtisadi və sosial coğrafiyanın əsasları" fənni ərazi sistemləri və onları yaradan elementlərin qarşılıqlı təsiri və asılılığın təzahürlərini öyrənir. | | |

| | |
|---|---|
| | Dünyada mövcud olan ayrı-ayrı dövlətlər, beynəlxalq təşkilatlar və transmilli kompaniyalar dünya iqtisadiyyatının subyektlərini təşkil edir. Dünya təsərrüfatının formalaşması prosesində əsas rol əmtəə və xidmətlərin ölkələrarası yerdəyişməsindən, həmin əmtəə və xidmətlərin istehsalı amillərinin yerdəyişməsinə, hər şeydən öncə isə kapitalın, əmək və informasiya ehtiyatlarının yerdəyişməsinə keçir. |
| **Kursun məqsədi** | Kursun məqsədi vahid sistem kimi dünya iqtisadiyyatı haqında biliyin formalaşması, tələbələrdə bu sahədə bilik sisteminin formalaşması, dünya təsərrüfatı sahələri və onlara ETT-nin təsirinin öyrənilməsi, dünya təsərrüfatı sahələrində struktur və ərazi dəyişikliklərinin öyrənilməsidir. |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Semestrin sonunda tələbələr aşağıdakı məsələləri öyrənmiş olacaqlar:<br>– Dünya iqtisadiyyatının formalaşması tarixi və inkişaf mərhələləri;<br>– Dünya iqtisadiyyatının sahələrini, onların inkişaf və ərazi üzrə yerləşmə xüsusiyyətləri;<br>– Elmi-texniki tərəqqi dövründə dünya təsərrüfatı sahələrində gedən struktur dəyişiklikləri.<br>Tələbələr semestrin sonunda bacarmalıdır:<br>– Müasir dünyanın “iqtisadi mənzərəsini” geniş dərk etməyi,<br>– Milli və dünya miqyasında iqtisadi fəaliyyətləri və müxtəlif təsərrüfat sahələrinin rolunu təhlil etməyi;<br>– Müxtəlif obyektiv amillərin müasir dünya təsərrüfatına təsirini təhlil etməyi. |
| **Qaydalar (Tədris siyasəti və qiymətləndirmə meyarları)** | Tədrisin keyfiyyətini təmin etmək məqsədilə mümkün qədər illüstrativ materiallara (on-line xəritələrə, qrafik təsvirlərə və diaqramlara) geniş yer ayrılmışdır.<br>Davamiyyət 5 balla qiymətləndirilir. Tələbənin dərsə onlayn qoşulması, qoşulma prosesinə gecikməməsi onun “Davamiyyət” balına yazılır. Tələbənin dərsə diqqətlə qulaq asması, axıradək onlayn rejimdən çıxmayaraq dərsi ekranda izləməsi, onlayn dərsdə danışaraq başqasına mane olmaması tələb olunur. Müəllim buna əməl etməyən tələbinin “davamiyyət” balından çıxa bilər. Hər 3-cü qayıb tələbənin 1 balını silmiş olur.<br>“Fəallıq” balı tələbənin keçilən mövzuya dair aktivlik göstərməsinə, müzakirələrdə fəal iştirakına, sual-cavabda işitirakına və suallara doğru cavab verməsinə görə verilir. Müəllim tələbənin fəallığını nəzərə almaqla hər dərs qeydlər aparır. Keçmiş mövzunu oxumadan dərsə qoşulan tələbə dərsdə tələb olunan fəallığı göstərə bilmir və buna görə semestrin sonunda həmin meyara görə verilən ballardan məhrum olur.<br>Quizlər üçün 10 bal ayrılıb. Belə ki, semestr ərzində ən azı 2 quiz (hər biri 5 ballıq) keçirilir. Quizlər açıq suallardan və ya test tapşırıqlarından, yaxud hər ikisindən (qarışıq) ibarət ola bilər. Tapşırıqlar müəllimin tələbələr üçün müəyyən etdiyi müddət ərzində yerinə yetirilə bilər. Quizdə üzürsüz səbəbdən iştriak etməyən tələbəyə əlavə kuiz verilmir. Cavablarını gecikdirən tələbələrin işi qəbul olunmaya və ya ballarının bir hissəsi çıxıla bilər. Digər texniki məlumatlar tələbələrə müəllim tərəfindən əlavə izah ediləcək.<br>Layihənin məzmunu minimum 8 A-4 formatlı səhifə həcmində olmalı, maksimum 12 səhifə təşkil etməlidir. Layihə tapşırığının məzmunu mövzunun adına uyğun olmalıdır, belə olmazsa, iş müəllim tərəfindən qəbul olunmayacaq. Layihə Word proqramında yığılıbsa, Times New Roman şrifti, 14 keqel, 1 intervalla yazılır. Səliqəli yazmaq tələb olunur. Layihənin hazırlanmasında internet resursları, o cümlədən yerli və xarici ədəbiyyat, beynəlxalq hesabat və mətbuat materiallarından istifadə oluna bilər. İstifadə olunan ən son ədəbiyyat və ya ən son internet-məlumatlar 2015-ci ildən sonrakı illəri əhatə etməlidir. Layihə işinin birbaşa internetdən endirilib kağıza çıxarılması yolverilməzdir.<br>İşin axırıncı səhifəsində mütləq istifadə olunmuş istinad linklərin adları göstərilməlidir.<br>Ən azı 3-4 mənbədən istifadə olunmayaraq yazılmış iş qəbul olunmur. |

| | |
|---|---|
| | Layihə işinin strukturu belə olmalıdır:<br>1. Tələbənin və mövzunun adı (titul vərəqində).<br>2. Tədqiqatın məqsədi.<br>3. Tədqiqatın məzmunu, təhlili, statistik analiz.<br>4. Nəticə (proqnoz).<br>Layihənin qiymətləndirilməsinin meyarları aşadğıdakı kimidir:<br>1. Fikirlərin ardıcıllığı, daha müasir ədəbiyyatdan istifadə – 3 bal.<br>2. Alınan nəticələrin spesifik və konkret olması, illər və ya dövrlər üzrə məntiqi təhlil, səbəb və nəticələrin, təsir edən amillərin və s. elmi cəhətdən düzgün göstərilməsi, doğru nəticə – 4 bal.<br>3. Təqdimat zamanı qazanılmış biliklərin yaxşı nümayiş etdirtilməsi – 3 bal.<br>Layihə işini təhvil tarixindən gec təqdim etmiş tələbə ən az 1-2 bal itirmiş olur.<br>Final və Aralıq imtahanları müəllim tərəfindən ya test, ya açıq sual, yaxud da hər ikisindən istifadə olunmaqla hazırlana bilər. Bununla bağlı daha ətraflı məlumat müəllim tərəfindən imtahan öncəsi veriləcək. |

**Təqvim planı**

| Həftə | Tarix | Mövzular | Dərslik / Tapşırıqlar |
|---|---|---|---|
| 1. | 18. 09. 2023<br>21. 09. 2023 | Dünya iqtisadiyyatı nədir və necə inkişaf etmişdir? | 1.Dünyanın iqtisadi və sosial coğrafiyası. H.B.Soltanovanın redaktəsi ilə. s. 5-6.<br>2. Lomakin V.K. Dünya iqtisadiyyatı. s. 3-6. |
| 2. | 25. 09. 2023<br>28. 09. 2023 | Dünya təsərrüfatının modeli və tipləri. Beynəlxalq əmək bölgüsü | 1. Dünyanın iqtisadi və sosial coğrafiyası. H.B.Soltanovanın redaktəsi ilə. s.14-21.<br>2. Lomakin V.K. Dünya iqtisadiyyatı. s.8-14. |
| 3. | 02. 10. 2023<br>05. 10. 2023 | İqtisadiyyatın qloballaşması və transmilli korporasiyaların fəaliyyəti | 1. Lomakin V.K. Dünyanın iqtisadiyyatı. s.115-126.<br>2. Bədəlov Ə.M., Ağayev A.M., Tağızadə S.C. Dünya iqtisadiyyatı. |
| 4. | 09. 10. 2023<br>12. 10. 2023 | Beynəlxalq iqtisadi inteqrasiya və dünya təsərrüfatı münasibətləri | 1. Lomakin V.K. Dünyanın iqtisadiyyatı.səh.96-101.<br>2. Kərimov C.H. Orucov A.İ., İsrafilov H.A.<br>3. Beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsi. |
| 5. | 16. 10. 2023<br>19. 10. 2023 | Açıq iqtisadiyyat və dünyanın azad iqtisadi zonaları | 1. Lomakin V.K. Dünya iqtisadiyyatı. s.101-102. |
| 6. | 23. 10. 2023<br>26. 10. 2023 | Dünya bazarı və dünya maliyyə bazarı | 1. Lomakin V.K. Dünya iqtisadiyyatı.səh.142-158. |
| 7. | 30. 10. 2023<br>02. 11. 2023 | Beynəlxalq iqtisadi münasibətlərin formaları | 1. Lomakin V.K. Dünyanın iqtisadiyyatı. səh. 86-91. |
| **Aralıq imtahanı** | | | |
| 8. | 06. 11. 2023<br>11. 11. 2023 | Dünyanın neft, qaz və kimya sənayesi | 1. Dünyanın iqtisadi və sosial coğrafiyası. H.B.Soltanovanın redaktəsi ilə. s. 24-31, 47-51.<br>2.Lomakin V.K. Dünya iqtisadiyyatı.s.178-186 |
| 9. | 13. 11. 2023<br>16. 11. 2023 | Dünya metallurgiyası və maşınqayırma | 1. Dünyanın iqtisadi və sosial coğrafiyası.<br>2. H.B.Soltanovanın redaktəsi ilə. s.35-43, 44-46. |

| | | | |
|---|---|---|---|
| | | sənayesi | |
| 10. | 20. 11. 2023<br>23. 11. 2023 | Dünya energetika və elektroenergetika sənayesi. | 1. Dünyanın iqtisadi və sosial coğrafiyası. H.B.Soltanovanın redaktəsi ilə. s.32-34, 81-83. |
| 11. | 27. 11. 2023<br>30. 11. 2023 | Dünya yüngül və yeyinti sənayesi | 1.Dünyanın iqtisadi və sosial coğrafiyası. H.B.Soltanovanın redaktəsi ilə.s.53-57 |
| 12. | 04. 12. 2023<br>07. 12. 2023 | Dünya kənd təsərrüfatı | 1.Dünyanın iqtisadi və sosial coğrafiyası. H.B.Soltanovanın redaktəsi ilə. səh. 58-68 , s.51-52. |
| 13. | 11. 12. 2023<br>14. 12. 2023 | Qlobal ərzaq probleminin mahiyyəti və coğrafiyası | 1. Dünyanın iqtisadi və sosial coğrafiyası. H.B.Soltanovanın redaktəsi ilə. s.83-84.<br>2. Lomakin V.K. Dünya iqtisadiyyatı. s.164-176 |
| 14. | 18. 12. 2023<br>21. 12. 2023 | Dünya nəqliyyat sistemi və xidmət sahələri | 1. Dünyanın iqtisadi və sosial coğrafiyası.<br>2. H.B.Soltanovanın redaktəsi ilə, səh. 69-77. |
| 15. | 25. 12. 2023<br>28. 12. 2023 | Ekoloji problemlər və dünya təsərrüfatı | 1. Dünya iqtisadi və sosial coğrafiyası. H.B.Soltanovanın redaktəsi ilə. s.84.<br>2. Lomakin V.K. Dünya iqtisadiyyatı.s.262-268 |
| **Final imatahanı** | | | |